# Müharibə caniləri layiqli cəzalarını alacaqlar

Vətən müharibəsində 30 illik işğala son qoyan Azərbaycan bununla kifayətlənmədi və xalqımıza qarşı zaman-zaman müxtəlif cinayətlər törətmiş ermənilərin həbs olunması üçün də hərəkətə keçdi. Bunun nəticəsidir ki, əli minlərlə azərbaycanlının qanına batmış, adları daim təxribatlarda səsləndirilən erməni canilər bir-bir həbs olunurlar.



Bu kimi faktlar sübut edir ki, Prezident İlham Əliyevin müharibə cinayətkarlarının cəzasız qalmayacağı ilə bağlı verdiyi bəyanatlar hər keçən gün özünü doğruldur. Müharibə canilərinin həbs olunaraq cəzalandırılması üçün lazımi işlər bu gün də davam etdirilir.

Milli Məclisin deputatı Ceyhun Məmmədov "Azərbaycan"a bildirdi ki, Azərbaycan dövləti xalqımıza qarşı cinayətlər törətmiş bütün ermənilərə qarşı lazımi addımları atacaq və onları mütləq cəzalandıracaq. Ermənilər əməllərinin cəzasız qalacağını düşünsələr də, son hadisələr də göstərir ki, belə olmayacaq. Sözsüz ki, xalqımıza və dövlətimizə qarşı düşmənçilik yolunu tutub, zaman-zaman müxtəlif vəhşiliklər törədən cinayətkarlar cəzasız qalmayacaqlar. Prezident İlham Əliyevin uzaqgörən siyasəti, düşünülmüş addımları sayəsində bütün hədəf və məqsədlərimizə nail olacağıq.

"Onlar bizim torpaqlarımızı talayıb, ərazilərimizi barbarcasına dağıdıb və ölkəmizə qarşı daim zalım və zülmkar münasibət sərgiləyiblər. Nəzərə almaq lazımdır ki, xalqımıza qarşı belə cinayətlər törətmiş ermənilərin sayı yüzlərlədir. Ona görə də bir neçə cinayətkarın həbsi ilə kifayətlənmədən Azərbaycan bu istiqamətdə addımlarını davam etdirir və sona kimi də davam etdirəcək. Əli yüzlərlə, minlərlə azərbaycanlının qanına bulaşmış cinayətkarların hər biri mütləq cəzasını alacaq", - deyə deputat bildirib.

***N.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 5 oktyabr.- S.5.